CCI'M HUMAN

CCI

# İNSAN HÜQUQLARI PROSEDURU

Coca-Cola İçecek`in (CCI) 10,000 nəfərdən çox işçisi var və Azərbaycan, İraq, İordaniya, Qazaxıstan, Qırğızıstan, Pakistan, Suriya, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistanda fəaliyyət göstərir.

## İNSAN HÜQUQLARINA HÖRMƏT

İnsan hüquqlarına hörmət CCI`ın əsas dəyərlərindən biridir. Biz əməkdaşlarımızla, təchizatçılarımızla, iş ortaqlarımızla və fəaliyyət göstərdiyimiz icmalar ilə əlaqələrimiz zamanı insan hüquqlarına hörmət göstərir və onu təşviq edirik. Bu prosedur beynəlxalq insan hüquqları prinsipləri rəhbər tutulmaqla BMT-nin İnsan Hüquqları Bəyannaməsinə, Beynəlxalq İnsan Hüquqları Qanununa, Beynəlxalq Əmək Təşkilatının 1998-ci il tarixli Əsas İş Prinsipləri və Hüquqları Bəyannaməsinə, BMT-nin Qlobal Sazişinə və BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinə əsaslanır.

Bu prosedur Coca-Cola İçecek`ə, sahip olduğumuz müəssisələrə, əksəriyyət payına sahib olduğumuz quruluşlara və idarə etdiyimiz obyektlərə aiddir. CCI öz təchizatçılarıdan və biznes tərəfdaşlarından da bu prinsipləri dəstəkləməyini gözləyir və onları öz bizneslərində oxşar prosedurları qəbul etməyə çağırır.

Biznesimizdəki və dəyər zəncirimizdəki insanlar üçün insan hüquqları risklərinin müəyyən edilməsi və onların qarşısının alınması üçün lazımi səy göstəririk. İş fəaliyyətlərimiz nəticəsində insan hüquqlarına mənfi təsir edən və ya nəticələnən hallar aşkar etdikdə onlar üçün ədalətli şəkildə düzəldici tədbirlərin görülməsini təmin etmək və ya bu məqsədlə əməkdaşlıq etmək bizim öhdəliyimizdir. Biz üçüncü tərəflə münasibətlərimiz zamanı bu kimi mənfi təsirlərlə əlaqəli olduğumuz və ya daxil olduğumuz zaman düzəldici tədbirlərə izin verilməsini təşviq edirik.

İnsan Hüquqları Proseduruna CCI İcra Komitəsi tərəfindən nəzarət olunur.

CCI'M HUMAN

## İCMALARIN VƏ MARAQLI TƏRƏFLƏRİN MƏMNUNİYYƏTİ

Biz fəaliyyət göstərdiyimiz icmaların bir hissəsi olduğumuzu qəbul edirik. Biz həmin icmalarla, həssas və zərər çəkmiş təbəqə də daxil olmaqla o icmalardakı insanlarla insan hüquqları üzrə onlar üçün vacib olan məsələlər barədə dialoq vasitəsi ilə ünsiyyət qurur və onların fikirlərini nəzərə alırıq. Lokal məsələlərin ən uyğun şəkildə lokal səviyyədə həllini tapacağına inanırıq. Lazım olduğu yerlərdə, işimizlə əlaqədar insan hüquqları məsələlərində vətəndaş cəmiyyəti və maraqlı tərəflərlə geniş bir şəkildə əməkdaşlıq edirik.

## MÜXTƏLİFLİK VƏ ŞİRKƏTİN BİR PARÇASI OLMAQ

Birlikdə çalışdığımız insanların müxtəlifliyinə və şirkətin bir parçası olmasına dəyər və önəm veririk. Biz bərabər imkanlar verilməsi barəsində qərarlıyıq və CCI`da seçim, işə götürmə, yerləşdirilmə, inkişaf, təlim, mükafatlandırma və vəzifədə yüksəlmə performansa, qabiliyyətə və təcrübəyə əsaslanır. İşçi qüvvəsindəki müxtəliflik hədəflərimizə çatmağımız üçün vacibdir. Beləliklə biz müxtəlif təbəqələrdən və tolerant baxışlardan istedadları cəlb etmək, yetişdirmək və saxlamaq üçün çalışırıq.

## ƏSASSIZ AYRI-SEÇKİLİK

Biz irqə, cinsə, rəngə, milliyətə, etnik mənsubiyyətə, sosial mənsubiyyətə, dinə, yaşa, əlilliyə, cinsi oriyentasiyaya, cinsi identifikasiyaya, siyasi baxışa yaxud da müvafiq qanunvericiliklə müdafiə olunan istənilən vəziyyətlə bağlı ayrı-seçkilikdən təcavüzdən və təhqirdən uzaq iş mühitlərini qorumaqda qərarlıyıq. Biz ayrı-seçkiliyə, təcavüzə, hörmətsiz və ya qeyri-münasib rəftara, ədalətsiz davranışa və ya hər hansı bir təzyiqə qarşı tolerantlıq göstərmirik.

## BİRLƏŞMƏ VƏ KOLLEKTİV SÖVDƏLƏŞMƏ AZADLIĞI

Biz əməkdaşlarımızın heç bir qisas cavabı, təhdid və ya təcavüz olmadan birliklərə qoşulma, birlik yaratma yaxud da qoşulmama hüququna hörmət edirik. Biz əməkdaşlarımız tərəfindən sərbəst şəkildə seçilmiş, qanunla qeydə alınmış və hüquqi qaydalarla təsdiqlənmiş birliyi təmsil edən nümayəndələrlə konstruktiv dialoq qurmağı öhdəmizə götürürük. Şirkətimiz bu nümayəndələrlə vicdanla sövdələşmək üçün səylərini əsirgəməyəcək.

## TƏHLÜKƏSİZ VƏ SAĞLAM İŞ YERİ

Əməkdaşlarımızın təhlükəsizliyi və sağlamlığı bizim üçün böyük əhəmmiyyət kəsb edir. Bizim siyasətimiz təhlükəsiz və sağlam iş mühiti təklif etmək, müvafiq təhlükəsizlik qayda və qanunlarına, eləcə də daxili tələblərə riayət etməkdir. Qəza, yaralanma və sağlamlığa təsir edən riskləri müəyyən edib aradan qaldıraraq, əməkdaşlarımızın fikirlərini də alaraq onları təhlükəsiz, sağlam və məhsuldar iş yeri ilə təmin etmək və onu qoruyub saxlamaq üçün çalışırıq.

## İŞ YERİ TƏHLÜKƏSİZLİYİ

Şirkətimiz, daxili və xaricindəki təhlükə nəticəsində yaranan zorakılıqdan, təcavüzdən, hədə və digər etibarsız yaxud da narahatedici şəraitdən azad iş mühiti təmin etmək öhdəliyini öz üzərinə götürür. Tələbə uyğun olaraq əməkdaş məxfiliyi, nüfuzu və ləyaqəti ilə əlaqədar olaraq əməkdaşlar təhlükəsizliklə təmin olunur və saxlanılır.

## MƏCBURİ ƏMƏK VƏ İNSAN ALVERİ

Biz həbsxana əməyi, təhkimçilik əməyi, asılı əmək, hərbi əmək, müasir quldarlıq və insan alverinin hər hansı forması da daxil olmaqla məcburi əməyin istənilən formada istifadəsini qadağan edirik.

## UŞAQ ƏMƏYİ

Şirkət 18 yaşından aşağı insanların təhlükəli iş tələb edən vəzifələrə işə götürülməsini qadağan edir.

## İŞ SAATLARI, ƏMƏK HAQLARI VƏ İMTİYAZLAR

Biz maaş prosedurunu sektora, yerli əmək bazarına və müvafiq kollektiv sövdələşmə şərtlərinə uyğun olaraq təsis etmişik. Biz fəaliyyətimizi əmək haqqı, iş vaxtı, əlavə iş saatları və imtiyazlar daxil olmaqla müvafiq qanunlara tam uyğun olaraq həyata keçiririk. Əməkdaşlarımıza qabiliyyət və bacarıqlarını təkmilləşdirə biləcəkləri imkanlar təklif edirik və həmçinin onların inkişafı üçün fürsətlər veririk.

## TORPAQ HÜQUQLARI VƏ SU RESURSLARI

Biz dəyər zəncirimizdə torpaqdan və sudan istifadənin mühüm nəticələrini qəbul edirik və bunu insan hüquqlarına hörmət olaraq xüsusi prosedur və fəaliyyətlərimizlə ələ alırıq. Biz ətraf mühit siyasətimizə uyğun olaraq insanların davamlı su qaynaqları, təmiz içməli su və lazımi sanitariya yolu ilə həm ekosistemlərin, həm də icmaların qorunma ehtiyacına hörmət edirik.

## ƏMƏKDAŞLAR ÜÇÜN TƏLİMAT VƏ MƏLUMAT VERMƏ

Biz bütün əməkdaşlar arasında açıq və dürüst ünsiyyətin dəyər və hörmət gördüyü iş yerləri yaratmağa çalışırıq. CCI fəaliyyət göstərdiyi hər yerdə müvafiq əmək və

CONFIDENTIAL

məşğulluq qanunlarına riayət etməyi öhdəsinə götürür. CCI həmçinin əməkdaşların təlim və illik sertifikatlaşdırma prosesi vasitəsilə İnsan Hüquqları Prosedurundan xəbərdar olmasını təmin edir. Əgər əməkdaş bu prosedurla qanunlar, adətlər, və çalışdığı iş yerindəki təcrübələr arasında uyğunsuzluq olduğunu düşünürsə və ya bu prosedurlar haqqında sualı varsa və ya prosedurun pozulması halları ilə əlaqədar gizli məlumat vermək istəyirsə, müvafiq məsələni yerli idarəçiliyə, İnsan Resurslarına, Yerli Etik Komitənin sədrinə və ya Qrup Etik Komitənin sədrinə bildirməlidir. Əməkdaşlar həmçinin, şübhəli prosedur pozuntularını CCI Etik Xətti (CCI Ethics Line) rəsmi saytına (http://www.cciethicsline.com) daxil olaraq, +90 212 371 07 32 nömrəsinə zəng edərək və ya cci@cciethicsline.com adresinə e-mail göndərərək bildirə bilərlər. Bu prosedurla bağlı narahatlığını bildirən heç bir əməkdaşa qarşı təzyiq və ya qisas tədbirləri görülməyəcəkdir. CCI əməkdaşların narahatlıqlarını təhlil edəcək, araşdıracaq və cavablandıracaqdır, və hər hansı pozuntuya qarşı müvafiq islahedici tədbirlər görəcəkdir.

İnsan Hüquqları Proseduru CCI-ın Etik Davranış Kodeksi ilə uyğunlaşdırılmışdır. Tərcümə və əlaqəli məlumatlar daxil olmaqla, bu prosedur CCI-ın internet saytından: http://www.cci.com.tr vasitəsilə əldə edilə bilər.

## İCTİMAİ HESABAT

Biz İllik Davamlı İnkişaf Hesabatımızın bir hissəsi olaraq İnsan Hüquqları Proseduru ilə uyğunlaşan, insan hüquqları ilə bağlı öhdəliklərimiz, səylərimiz və bəyanatlarımız barədə ictimaiyyətə məlumat veririk. Bu hesabat BMT-nin Hesabat Çərçivəsi Rəhbər Prinsiplərinə istinad edir.

*CCI istənilən vaxt bu siyasətə düzəliş etmək hüququnu özündə saxlayır. Bu prosedurda CCI və onun əməkdaşları arasında müqavilə olduğu deyilmir və ifadə edilmir və ya bu proqramda iştirak etmək CCI-da davamlı iş təminatını vermir.*